**"ABAD" publik hüquqi şəxs və "Azərbaycan Standartlaşdırma İnstitutu" publik hüquqi şəxs arasında**

## ANLAŞMA MEMORANDUMU

**Bakı şəhəri** **"22" may 2018-ci il**

Bundan sonra "Tərəflər" adlandırılacaq, **"ABAD" publik hüquqi şəxs** (bundan sonra - ABAD) adından direktor Rüfət Elçiyev şəxsində, **"Azərbaycan Standartlaşdırma İnstitutu" publik hüquqi şəxs** (bundan sonra – İnstitut) adından baş direktor Namiq Tağıyev şəxsində "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "ABAD" publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 sentyabr tarixli 1047 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakına, kiçik və orta sahibkarlığın inkişafına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına və rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına, habelə onların məhsullarının sertifikatlaşdırılmasının "bir pəncərə" prinsipi əsasında təşkilinə dəstək vermək məqsədi ilə ölkəmizdə istehsal olunan məhsulların keyfiyyətini, təhlükəsizliyini, rəqabət qabiliyyətini daha da artırmaq, standartlaşdırma sahəsini liberallaşdırmaq və müasir tələblərə uyğunlaşdırmaq, nəzarət mexanizminin şəffaflığının və çevikliyinin artırılmasına nail olmaq üçün aşağıdakı şərtlərlə bu Memorandumu imzaladılar:

### 1. Memorandumun predmeti

Tərəflər "ABAD" tərəfindən həyata keçirilən ailə təsərrüfatlarının, kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi layihələrinə, əhalinin özünüməşğulluq səviyyəsinin artırılmasına və rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək vermək məqsədi ilə məhsullarının sertifikatlaşdırılmasının "bir pəncərə" prinsipi əsasında təşkilinə, "ABAD"ın müşayiəti ilə istehsal olunan məhsulların və göstərilən xidmətlərin (bundan sonra "ABAD" məhsulları və xidmətlər) texniki normativ sənədlərinin hazırlanmasına və istifadəsini təmin etməyə, təlimlərin keçirilməsinə, həmçinin qanunla qadağan edilməyən digər sahələrdə birgə əməkdaşlıq niyyətlərini və Tərəflərin mövcud imkanları nəzərə alınmaqla bu istiqamətdə tərəflər arasında razılaşdırılacaq qarşılıqlı tədbirlərin görülməsinə öz razılıqlarını bəyan edirlər.

### 2. Tərəflərin dəstəyi

**2.1. İnstitut aşağıdakılar üzrə güzəştli əsaslarla dəstək göstərmək niyyətindədir:**

**2.1.1.** Dövlət proqramlarına uyğun olaraq "ABAD" mərkəzlərində xidmətlər göstərmək və maarifləndirici tədbirlər həyata keçirmək;

**2.1.2.** Korporativ sosial məsuliyyət tədbirləri çərçivəsində həyata keçirilən layihələrə dəstək vermək;

**2.1.3.** "ABAD" mərkəzlərində "bir pəncərə" prinsipinin tətbiqinə dəstək göstərmək və metodiki tövsiyyələr vermək;

**2.1.4.** "ABAD" məhsullarının müqavilə əsasında laborator sınaqdan keçirilməsinə dəstək vermək;
**2.1.5.** İxrac olunan "ABAD" məhsullarının müqavilə əsasında beynəlxalq akkreditasiyadan keçən laboratoriyada sınaqdan keçirmək;
**2.1.6.** Normativ texniki sənədi olmayan "ABAD" məhsullarının müqavilə əsasında normativ texniki sənədlərinin hazırlanmasını həyata keçirmək və onları qeydiyyata almaq;
**2.1.7.** "ABAD" layihələrinin tətbiqi ilə bağlı keçirilməsi nəzərdə tutulan təlimlərin həyata keçirilməsinə dəstək vermək və ya tərəflərin razılaşdırdıqları təlimçiləri cəlb etmək;

**Bununla da İnstitut aşağıdakı hüquqlara malikdir:**
**2.1.8.** Bu Memorandumun predmeti istiqamətində birgə həyata keçirilən layihələr barəsində informasiya əldə etmək, yaradılmış işçi qrupların fəaliyyətinə nümayəndəsini cəlb etmək;
**2.1.9.** Birgə təşkil edilə biləcək layihələr, təcrübə mübadiləsinin aparılacağı sahələr və digər fəaliyyət sahələrinin müəyyən edilməsi haqqında təkliflər vermək;
**2.1.10.** Birgə həyata keçirilən korporativ sosial məsuliyyət tədbirləri haqqında ictimaiyyəti məlumatlandırmaq;
**2.1.11.** Normativ texniki sənədlərin hazırlanmasında, sertifikatlaşdırma prosesinin və laborator sınaqların həyata keçirilməsinə görə xidmət haqqlarını almaq.

**2.2. ABAD aşağıdakılar üzrə dəstək göstərmək niyyətindədir:**
**2.2.1.** Bu Memorandumun predmetinə uyğun "ABAD" mərkəzlərində zərurət olarsa İnstitutun əməkdaşlarına xidmətlərin göstərilməsi üçün lazımı şərait yaratmaq, sistemlərindən istifadə etmək və həyata keçiriləcək layihələr barədə İnstituta əvvəlcədən məlumat vermək;
**2.2.2.** Normativ texniki sənədləri olmayan "ABAD" məhsullarının istehsal texnologiyası şərtlərini hazırlayıb İnstituta təqdim etmək;
**2.2.3.** Birgə həyata keçiriləcək layihələr və dəstək sahələrini İnistitutla razılaşdırmaq;
**2.2.4.** Birgə fəaliyyət sahələrinin müəyyənləşdirilməsi ilə bağı görüşlər təşkil etmək;

Bununla da, "ABAD" aşağıdakı hüquqlara malikdir:
**2.2.5.** İnstitut tərəfindən həyata keçiriləcək fəaliyyət, eləcə də xidmətlərin göstərilməsi barədə informasiya almaq;
**2.2.6.** İnstitut ilə birgə həyata keçiriləcək layihələrin icrası məqsədi ilə ehtiyac olduqda və tərəflərin qarşılıqlı razılığı ilə işçi qrupları yaratmaq, təcrübə mübadiləsi proqramları hazırlamaq.

**2.3.** Tərəflər qanunvericiliklə müəyyən edilmiş hallar istisna olmaqla yuxarıda qeyd edilənlərlə bağlı hər hansı işlərin görülməsi, xidmətlərin göstərilməsi, kadrların təqdim edilməsi, maliyyə yardımının göstərilməsi və s. istənilən formada dəstəyi yalnız könüllülük prinsipi əsasında həyata keçirir və bununla bağlı bir-birinin və ya üçüncü şəxslərin qarşısında heç bir öhdəlik və ya məsuliyyət daşımır.

## 3. Memoranduma tətbiq olunan hüquq və mübahisələrin həlli qaydası

**3.1.** Tərəflər arasında bu Memorandum ilə tənzimlənməyən münasibətlər Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə tənzimlənir.

3.2. Bu Memorandum ilə bağlı yarana biləcək hər hansı mübahisələri Tərəflər qarşılıqlı danışıqlar yolu ilə həll etməlidirlər.

## 4. Memorandumun qüvvədə olma müddəti və Memoranduma vaxtından əvvəl xitam verilməsi qaydası

**4.1.** Bu Memorandum Tərəflər onu imzaladığı andan qüvvəyə minir və 1 (bir) il müddətində qüvvədədir. Memorunandum müddətinin bitməsinə ən geci bir həftə qalmış Tərəflərdən hər hansı biri yazılı şəkildə Memorandumun qüvvədə olma müddətinin davam etdirilməsinə etiraz etməzsə, Memorandumun müddəti eyni şərtlər və müddətə növbəti il üzrə uzadılacaqdır. Memorandumun hazırki müddəası rəsmi etiraz olmadıqca növbəti illərə də tətbiq edilir.

**4.2.** Bu Memoranduma aşağıdakı hallarda vaxtından əvvəl xitam verilə bilər:

**4.2.1.** Tərəflərin qarşılıqlı yazılı razılığı ilə;

**4.2.2.** İstənilən halda tərəflərdən birinin təşəbbüsü ilə 1 (bir) ay öncədən digər tərəfi yazılı qaydada xəbərdarlıq etməklə.

## 5. Xüsusi şərtlər

**5.1.** Bu Memoranduma edilən hər hansı dəyişiklik və ya əlavələr Tərəflərin belə hərəkətləri etməyə səlahiyyətli olan nümayəndələri tərəfindən yazılı formada tərtib edilməli və təsdiq edilməlidir.

**5.2.** Bu Memorandum Azərbaycan dilində tərtib edilmiş və hər tərəfdə bir nüsxə qalmaqla və hər ikisi eyni hüquqi qüvvəyə malik olmaqla iki nüsxədə imzalanmışdır.

| **"ABAD" publik hüquqi şəxs adından:** | **"Azərbaycan Standartlaşdırma İnstitutu" publik hüquqi şəxs adından:** |
|---|---|
| *Direktor* ____________ *R.Elçiyev* | *Baş direktor* ____________ *N.Tağıyev* |
| *M.Y.* | *M.Y.* |